*Hamlet Isaxanli*

*Doctor of Physical-Mathematical Sciences, Professor. Poet. Public figure.*

*Author of hundreds of research articles, monographs and text-books on various problems of modern mathematics, history of science and culture, education policy, theory and history of education, language and literary studies, theory and history of translation, politics and history.*

*Editor of various journals, books, dictionaries and translations.*

*Founder and President of Khazar University.*

Hamlet İsaxanlı az sözdə vəznli fikir ifadə etmək ustalığına malik şairdir.

*Professor Camal Mustafayev*

Hamlet İsaxanlı öz poeziyasında - lirikanın, incə psixologizmin, bədii güc və həyatın fəlsəfi dərkinin eyni dərəcədə, həmahəng səsləndiyi şeirlərində böyük ustalıqla insanın iç dünyasına nüfuz edir.

*"İzoqraf" nəşriyyatı, Moskva*

9 789952 200423

HAMLET İSAXANLI • *Dördlüklər*

# Hamlet İsaxanlı

# *Dördlüklər*



*Fizika-riyaziyyat elmləri doktoru, professor. Şair və publisist. İctimai xadim.*

*Müasir riyaziyyatın müxtəlif məsələləri, elm və mədəniyyət tarixi, təhsil siyasəti, təhsil nəzəriyyəsi və tarixi, dil, ədəbiyyat, tərcümə nəzəriyyəsi və tarixi, siyasət və tarix üzrə yüzlərlə məqalə, monoqrafiya və dərsliklərin müəllifi.*

*Bir sıra jurnal, kitab, lüğət və tərcümələrin redaktoru.*

*Xəzər universitəsinin təsisçisi və rektoru.*

Hamlet İsaxanlı

# *Dördlüklər*

Xəzər Universitəsi Nəşriyyatı
2007

© Xəzər Universitəsi Nəşriyyatı, 2007
Bütün hüquqlar qorunur.

Tərtibatçı-rəssam: ***Nərgiz Əliyeva***

Kompyuter işi: ***Zakir N. Yusifoğlu***

**İsaxanlı, Hamlet.**
Dördlüklər / Hamlet İsaxanlı.
**ISBN 978-9952-042-3**
1. Azərbaycan poeziyası 2. Rübailər.
3. Bayatılar.
894.3611-dc22

Kitaba müxtəlif illərdə yazılmış və əksəriyyəti ilk dəfə çap olunan dördlüklər (dörd misralı şeirlər) daxil edilmişdir. Kitab dörd hissədən ibarətdir:

**Rübailər** – “aaba” şəklində qafiyələnmiş 11 hecalı dördlüklər,
**Bayatılar** – “aaba” şəklində qafiyələnmiş 7 hecalı dördlüklər,
**Yarpaqlar** – xüsusi qafiyə və heca məhdudiyyəti olmayan dördlüklər,
**Məcazlar** – Sabirsayağı yazılmış dördlüklər.

Son iki hissədə müstəqil dördlüklərlə yanaşı müəllifin şeir və poemalarından seçilib götürülmüş dördlüklər də yer almışdır.

# İçindəkilər

*Rübailər................ 1*

*Bayatılar.............. 83*

*Yarpaqlar.............119*

*Məzazlar..............201*

# Rübailər

Atəşlər püskürən odlu günəşdin
Ayla bəhsə girdin, göylə əlləşdin.
Bu nə incə görkəm, nə açıq geyim?
Nə xəbər eylədin, nə bir gənəşdin.

Başqa fəzalarda gördüm yerimi
Ağlatdım, sızlatdım şeir pərimi
Ağlın gözü ölçüb-biçməsin deyə
İçimdə gizlətdim şeirlərimi.

Başqan çaldı-çapdı iş arasında
Dilim kilidləndi diş arasında
Cumdum təbiətə, eşqə, sənətə
Dəmləndim yaz ilə qış arasında.

Başlanğıc olubsa, söylə, o nədir,
Öncə kainatdır, ya düşüncədir?
Məhdud ağlımızla əbədiyyəti
Dərk edə bilmirik, iş çox incədir.

Bəşərin əzəli gərdişi nədir?
- Sevgidən doğulur, yoxluğa gedir.
Torpaq yox olanı unudan deyil
Yerbəyer eyləyir onları bir-bir.

Bəzən dara düşür məxluqun canı
Təki dar olmasın ruhun meydanı
Ağlına sahib dur, sevgiyə can at
Sevgi gənc saxlayır aqil insanı.

Bir günəş üfüqdən göyə ucalır
Dünya ondan işıq, hərarət alır
Gecə milyon ulduz parlasa belə
Yenə soyuq zülmət bizimlə qalır.

Bir insan ki, getdiyi haqq yoludur
Bir insan ki, həqiqətin quludur
Bir insan ki, məhəbbətlə doludur –
Aramızda azad insan, bax, odur.

Biri kefsiz, biri kef-damaqdadır
Dünən solçu olan bu gün sağdadır
İlan dərisini dəyişir tez-tez
Kirpi öz kürkünü yamamaqdadır.

Bu qoca dünyaya bilmirəm noolub?!
İşlər ya baş-ayaq, ya lağ-lağ olub
Uşaqlar, maşallah, çıxmır ortadan
Böyüklər yamanca utancaq olub.

Buludlar tökülən qaş-qabağımdır
Dumanlar dağlara çökən ahımdır
Sevincsiz, ümidsiz yol üstündəyəm
Möhnət düşərgəmdir, qəm sabahımdır.

Canımdan bezmişdim, düşmüşdüm xəstə
Göylərdən süzüldü bir  səs ahəstə
Bəxtinə kor demə, sevgiyə tələs
Canan can istəsə, de: gözüm üstə!

Çiynimə aldığım nə ağır yükmüş –
Cismimi titrətmiş, dizimi bükmüş;
Şükür, yıxılmadım, ayaq üstəyəm
Ruhun fəziləti daha böyükmüş!

Çoxu nə istəyir? – Can rahatlığı!
Bəs başqaları nə? – Söz azadlığı!
Bəs sevgi? Onsuz puç deyilmi həyat?
Fəlakət deyilmi sevgi qıtlığı?!

Deyirəm: yaxın gəl! Sözümə baxmır
Məni can evinə yaxın buraxmır
Mən də hal əhliyəm, gözümü yumub
Öpürəm, sağ olsun, başıma qaxmır.

Deyirik: sevgidən yoğrulub bəşər
Deyirik: sevirəm dünyalar qədər.
Amma qəlbə bir az toxunan kimi
«Dünyalar qədər»dən qalmır bir əsər.

Deyirlər ki, bülbül gül eşqindədir
Həyatı eşq dolu nəğməsindədir
Bunu kim kəşf edib, ya kim uydurub?
- Şairlər tayfası öz işindədir!

Deyirsən yayğındır tərif söyləmək
Güclüyə yalvarmaq, təzim eyləmək.
Hər işin sahibi, sənətkarı var –
Məddahlıq sənətmiş, daha neyləmək?!

Dəli Kür, sənə kim verdi bu adı?
Minillər qarşını heç kim almadı
İndi ki, qoluna bəndlər vuruldu
Səndə dəlilikdən əsər qalmadı.

Dərin bir ahənglə dövr edir aləm
Mən bu dərinlikdən hali deyiləm
Yığın-yığın kitab gözləyir məni
Ömür yetməyəcək, budur dərd-ələm.

Dərinə nüfuz et, düşünmə üzdən
Vaz keçmə gecədən, bezmə gündüzdən
Ədalət nur saçar ömür yoluna
Doğru seçə bilsən əyrini düzdən.

Doğru yolla getmək deyilsə asan
Gərək sağa, sola sapmasın insan –
Əqidə nə bığdır, nə də ki, saqqal
Hərdən uzadasan, hərdən qırxasan.

Doğrumu axıtdım alın tərimi?
Tapdımmı həyatda əsl yerimi?
Cavab axtarmıram bu suallara
Sadəcə, düşündüm öz qədərimi.

Duyğuya hədd qoysan, o, duyğu deyil!
Gözələ təzim et, önündə əyil!
Vüqara yer yoxdur eşq meydanında
Eşq səni tam istər, bunu yaxşı bil!

Dünəni yaşadım, dünəndə bitdi
Uşaqlıq qayğılar dinəndə bitdi
Qısqanclıq, çılğınlıq dolu səhnələr
Ömrümüz payıza dönəndə bitdi.

Dünənim bitmişdir, sabahım-duman
Gedənim itmişdir, gələnim-güman
Ortada durmağa nə yer, nə vaxt var
Çalxalanır məkan, dəyişir zaman.

Dünya doğrudan da xeyli qocadır
Fikirdən dərindir, sözdən ucadır
Görüb bildiyimiz dünya deyil ki -
Dünya açılmayan bir tapmacadır.

Dünya fani, ömür əlli-yüz ilmiş
Bu söz yeni deyil, hər vaxt deyilmiş.
Dərdə dözməyəmi yaranıb ürək?!
- Dünya yaşanası bir yer deyilmiş.

Dünyada tam nizam yaranacaqmı?
Hər yanda səadət aranacaqmı?
Fikirdən cücərir xeyir də, şər də
Pırpız düşüncələr daranacaqmı?

Dünyamızda çox işlər var baş-ayaq
Bu düyünü kim açacaq? Nə sayaq?
- Ağır işdir. Gəlin baş sındırmayaq,
Gözəlliyi duya-duya yaşayaq!

Dünyanı doldurub min fitnə - fəsad
Yarəb, bu işlərə sən özün əl qat
Bəşəri bədəndən, nəfsdən deyil
Ruhdan, məhəbbətdən yoğurub yarat!

Dünyanı tutubdur dinsiz, imansız
Yaşamaq  ağırdır, həyat amansız
Mədəd rəhim olan allaha qalıb
Yaxşılar fağırdır, yamanlar qansız.

Əllərinlə saçlarını darama
Əvəzində bir sığal çək yarama
Məndən sonra nə istəsən sənindir
Mən sağ ikən başqa yarı arama.

Gözəllik seyrinə dalmaq üçündür
Məhəbbət ürəkdə qalmaq üçündür
Həyat hərəkətdir, gəlib-gedəndir
Əməl həyatdan bac almaq üçündür.

Gözlərim səmada, ulduzda, ayda
Göz görənə əl çatmırsa, nə fayda?!
Gözəllikdən doymaq olmur, ay haray
Bu dünyada nə insaf var, nə qayda.

Günahkar bəndənin başqa bəndədən
Kişinin qadından, qızın dədədən
Üzr diləməsi çətin deyilsə
Cilddən cildə girmək baş alır nədən?

Günəşin saçını hörə bilmirik
Zalımın dərsini verə bilmirik
Həyatın üzü çox tanış olsa da
Içini dərindən görə bilmirik.

Günəşdən xoşlanan bir gözəl vardı
Özü də ətrafı oda salardı
Qum üstə uzanıb xumarlananda
Günəş özü ondan ləzzət alardı.

Günəşlə açılır səhərin gözü
Səhəri gətirir günəşin özü
Xumar baxışlardan alışır-yanır
Məhəbbət adlanan ocağın közü.

Hər vaxta alışdım, hər üzü gördüm
Gecəylə öpüşən gündüzü gördüm
Ürək sadiq qaldı sevgilərinə
Ürəkdə yaşayan hər izi gördüm.

Həya üzdə, ismət canımızdadır
Könül hərarəti qanımızdadır
Sevinc də, kədər də uzaqda deyil
Biri sağ, biri sol yanımızdadır.

İnanılmaz bir gözələ inandım
İllər boyu dilə düşdüm, qınandım.
O dönüklük damğasını qazandı
Mən yolumdan dönməzlikdə sınandım.

İnsan ömür sürüb yaşa dolanda
Xatirələr solub kövrək olanda
Güc qalarmı canda? Təbiətə bax –
Torpaq da bozarır güllər solanda.

İnsan torpaq üstə qədəm qoyunca
Zəhmətə qatlaşır  ömrü boyunca
Saldığı bağ-bağça çiçək açsa da
Çox zaman barını yemir doyunca.

İpəkdən yumşağam, qayadan möhkəm
Qılınca tutulur varlığım, kölgəm
Məmur iş görənə badalaq qurur
Söylə, bu nə işdir, ey şanlı ölkəm?

İşıqlı günləri sona yetirdik
Qara buludların qoynuna girdik
Tamam itirəndə anladıq yalnız
Nəyimiz var imiş, nəyi itirdik.

Karvan köçür, yola salmaq vaxtıdır
Küsmüşəm, könlümü almaq vaxtıdır
Laylası əksikdir nazik ömrümün
Çal, aşıq, çal, qardaş, çalmaq vaxtıdır.

Könül vurhavurda, hayda-harayda
Bədən keşik çəkir - belədir qayda
Dərya dalğalanır, coşur ortada
Sahil dayanıbdır o tay, bu tayda.

Kövrəkdir hər günüm, heyhat, hər anım
Çıxacaq əlimdən bir gün sükanım
Cismani varlığım yetəcək sona
Könüllər mülkünə qalır gümanım.

Qara qələm ağ kağıza tuş gəlir

Dolu dünya bəzən bizə boş gəlir.

Həqiqət çox zaman acı dadır ki –

Şirin yalan qulaqlara xoş gəlir.

Qayda yaradanam, qayda pozanam
Sufiyəm, Dərvişəm, Dəli Ozanam
Şairlik sevdası yoxdur başımda
Məhəbbət coşanda şeir yazanam.

Qəhrəmanlıq deyil suç işlətməmək
O nə hünər istər, nə böyük əmək.
Məqsəd bu dünyadan suçsuz getməksə
Heç nə eyləməmiş gedirik demək.

Quş quşa söykənib budağa qonur
Nuru görən yoxsa, nur olmaz ki nur;
Sevgi iki könül, iki can istər
Özünü sevməklə məhəbbət olmur.

Qüdrətdən pay versin Füzuli, Xəyyam
Vəsfinə gücüm yox, özgədir əyyam
Gözlərim söyləyir sənə sevgimi
Neyləyim, dilimi bağlayıb həyam.

Meşə dərdə düşüb, halı saz deyil
Baltanın küt səsi xoş avaz deyil
Hər ağacı kəsmə, a balta tutan,
Çürük çox olsa da, sağ da az deyil.

Mənə ayrılan vaxt bir gün dolacaq
Köhnə şəkillərim bir-bir solacaq
– Nə vaxt, necə, harda? - Bu bəlli deyil
Bəllidir ki, bunlar mütləq olacaq.

Möcüzəni duydum öz üzərimdə
Hurisən, afətsən sən nəzərimdə
Mənə təkcə sevinc bəxş etmədin ki -
Dərmanım da sənsən, dərdi-sərim də.

Nə qədər kükrəsə, aşıb-daşsa sel
Qoynunda ram eylər onu dəniz, göl.
Həyatın axarı-çıxarı budur:
Əvvəl sel kimi coş, qayna... sonra öl.

Nədən içdən-içdən oxuyuram mən,
Oynayır sümüyüm, oynayır bədən?!
- Iş nə sümükdədir, nə də bədəndə
Duyğu telləridir coşur sinədən.

Nədəndir gen dünya mənə dar gəlir,
Sevinc üz döndərir, intizar gəlir?
Kişiyə ağlamaq yaraşmasa da
Bəzən ağlamamaq mənə ar gəlir.

Nədir ölçü, nədir çəki dünyada?
Sevgi hökm edəydi təki dünyada
Öləcəm qəlbimdə son məhəbbətim
Gör necə xoşbəxtəm iki dünyada.

O can alan mənə busə göndərdi
Göndərdisə, bəs niyə üz döndərdi?
Ağlar-gülər yaşamaqdan bezmişəm
Məni öldürəcək bu eşqin dərdi.

Ocaq külə dönsə, yandırıb-yaxmaz
İlham gahdan sönsə, söz sözə baxmaz
Günahlar dillənsə, sıxılar könül
Dodaqlar tərpənər, göz gözə baxmaz.

Oxumağım adi, yazmağım adi
Nə Molla Pənaham, nə də Vidadi
Şeir adlı bir şıltaq canana uydum
Canımı alsa da, ruha qidadı.

Olan olub keçib, özündən çıxma
Bəxtinə kor deyib qəlbini sıxma
Boynu vurulası günahkar mənəm
Günahı allahın üstünə yıxma.

Sarışın-qızılı payız günləri
Sinəmə dağ çəkdi bir gözəl pəri
Köç etdi, tərk etdi bizim elləri
Içimi göynətdi xəzan yelləri.

Sevgini zarafat sayma, əziz dost
Sevdiyin insandan doyma, əziz dost
Güldən gülə qonan kəpənək kimi
Hər gözün tutana uyma, əziz dost.

Sən ey cəfalara vəfalı qadın,
Sağ ol ki, peşəni ucuz tutmadın
Mənə zülm etməyi, qan uddurmağı
Qəti ləngitmədin, heç unutmadın.

Sözlər var ki, soğan kimi acıdır
Sözlər də var - başımızın tacıdır
Dil yarası sağlam adam öldürər
Dil də var ki, dərdlərin əlacıdır.

Tale hər vaxt nəvazişə qərq etməz
Günəşlər də nəhayətsiz bərq etməz
Ölüm haqdır, dadacaqdır hər insan
Dəli olsun, dahi olsun, fərq etməz.

Tanrım, mənə yar ol, bir dastan yazaq
Tapdanmış fikirdən, boş sözdən uzaq
Ya al qələmimi, dəf olum, gedim
Ya da sınağa çək, hünərimə bax.

Tərifləmək istəməsən, bacar - sus
Ürəksiz söz ürəkdə iz açar - sus
Vicdanına bir zərrə toz qonarsa
Ayağının altından yer qaçar - sus!

Unudaq kim-kimə nə sözlər demiş
Unudaq kim kimdən, nədən incimiş.
Yaratmaq yanğısı, insana sevgi –
Ömrün dadı, duzu bunlarda imiş.

Uşaqkən duymadım nəçiyəm, nəyəm
Gəncliyimi sardı məhəbbətlə qəm
Yaşlandım, nazilib kəpənək oldum
Tanrıya üz tutub uçmaq üzrəyəm.

Uzaq ulduzları saya bilmirik
Yaxın sevgiləri duya bilmirik
Ömür çox qısadır, həyat çox şirin
Nə qədər yaşasaq doya bilmirik.

Ürəyə düşən iz itmir ki, itmir
Eşqin tərənnümü bitmir ki, bitmir
Bəstəkar ya şair, alim ya rəssam
Ömür həsr etsə də, yetmir ki, yetmir.

Yer nədir? - Altımda qaynayan vulkan
Göy nədir? - Üstümə çəkilən yorğan
Yer, göy arasında ömür sürürəm
Ömür nədir? - Sevinc üstəgəl fəğan.

Yetər ki, parlasın günəş bir anlıq
Təbiət süslənər, qaçar qaranlıq.
Bəs nədən bəşərin xilqətindədir
Gecəyə vurğunluq, aya heyranlıq?!

Yoxdur bərabərlik qoca dünyada
Kimi at oynadır, kimi piyada
Sevgi üstələsə kini, nifrəti
Əzilməzdi bəşər həddən ziyada.

Zərif hisslər, həzin nəğmə, xoş şeir
Layla çalır, məhəbbətə «gəl» deyir;
Bəlağət, parıltı, gurultu, hay-küy
Candan usandırır, «yıxıl öl» deyir.

# Bayatılar

Araz Kürlə qovuşdu
Xəzər coşdu, nə coşdu!
Sevginin lal dənizi
Məndən səni soruşdu.

Aşıb-daşır eşqımız
Sevməsək ölərik biz
Ölüm allah əmridir
Sevməksə – öz işimiz.

Ay batdı, ulduz söndü

Sevən qəlblər döyündü

Gözündə işıq gördüm

Zülmət cənnətə döndü.

Daddım, duydum cahanı
Duydum...bəs xeyri hanı?
Duyaraq tərk edirəm
Bu vəfasız dünyanı.

Dağlar darda qalıbdır
Başı qarda qalıbdır
Gözümün nuru dağlar
Nurun harda qalıbdır?

Daşlığa düşdü atım
Mənzilə necə çatım?
Bir quru eşqə düşdüm
Zaya getdi həyatım.

Demə ki, baxtın yoxdu
Ya uca taxtın yoxdu
Baxt sənə yar olanda
Məşğuldun, vaxtın yoxdu.

Dəryadayam, gəmim yox
Çöllərdəyəm, zəmim yox
Qəmdən zəngin olmuşam–
Kəsirim yox, kəmim yox.

Dodaqları bal dadır
Dili yaman aldadır
Gah hə deyir, gah da yox–
Başım qalmaqaldadır.

Durmadan axır çaylar
Axının hər üzü var:
Alıb qoynuna qatar
Tutub sahilə atar.

Eşitmədin ünümü
Qara etdin günümü;
Bir ağgünlü istərəm –
Gəlib alsın könlümü.

Eşq oddur, möcüzədir
İçimizdə közərir
Eşq yanağa hərarət
Gözə parlaqlıq verir.

Evimi yıxdı hirsin

Evinə ilan girsin

Bəndənin gücü çatmaz

Cəzanı Allah versin.

Ətrafı tutarsa şər
Ürəyi boğar kədər
Yanıb-yaxılar ürək
Yana bildiyi qədər.

Gah boynunu bükürsən
Gah göz yaşı tökürsən.
Dünyamı vəfasızdır,
Ya sənmi naşükürsən?

Göydə bulud inləyir
Yerə yağış ələyir ;
Könlümdəki buludlar
Üzümə yaş çiləyir.

İnsan ölür... Deməli–
Qalsa qalır əməli
Və əməldən hörülür
Dünyamızın təməli.

İtkisiz olmaz zəfər
Yoxdur mütləq müzəffər
Eşqdə kamillik gəzmə
Sevgi yanlışlıq sevər.

Kim ki, meydanda təkdi
Ona bir dost  gərəkdi;
Kərəm dərdə düşəndə
Dərdini Lələ çəkdi.

Kor işığı görəmməz
Kar səsə səs verəmməz
Qəlbi atəşsiz olan
Eşq mülkünə girəmməz.

Qara niyyət, ağ ciyər,
Varlığı boş, ruhu şər -
Zəiflərə ağadır
Güclülərə - qul, nökər.

Məsud etmir nur məni
Kədərim boğur məni
Tanrım, səndən ricam var:
Təzədən yoğur məni.

Müdriklər tez od almaz
Boş sözü saya salmaz
Hər hürənə daş atsaq
Yurdumuzda daş qalmaz.

Od soyuyub sönərmiş
Sular buza dönərmiş;
Olduğu kimi qalmaq
Demə böyük hünərmiş.

Sevdi, ya sevmədi yar-
Şerə dönür duyğular.
Eşqin tək özündə yox
Sözündə də nəşə var.

Sən məndən uzaqlarda
Gül yığırsan dağlarda
Aranda qalan canım
Sızlayar da, ağlar da.

Sızlaram qərib-qərib
Yar məndən üz döndərib.
Görən bu öz suçumdur,
Ya tanrı pay göndərib?

Suda gəmilər  üzər

Göydə qartallar süzər

Hava, su kədər bilməz

Kədər ürəkdə gəzər.

Tanrım, ruhum şikəstdir
Qara yeli az əsdir
Təzədən dərd paylama
Dərdim özümə bəsdir.

Təbiətdə qayda var:
Geriyə axmaz çaylar.
Könlümsə qayda bilməz
Ötən günü haraylar.

Ürək vurarmı qansız?!
Eşq yaşarmı gümansız?!
Sevgiyə sığın, ay qız,
Gəmi yoxdur limansız.

Yolüstü seçdin məni
Tapdayıb keçdin məni
Təzə baş qaldırmışdım
Doğrayıb biçdin məni.

Yuxudan oyan dedim
Oyandı, can-can dedim
Dünya istəmədim ki,
Halıma bax, yan dedim.

Zalım yar bircə saat
Məni qoymadı rahat
Mən bu zülmün əlindən
Hara qaçım, camaat?

# Yarpaqlar

Ağaclar boy atıb çiyin-çiyinə
Göydə quşlar, yerdə sular oynayır
Duyğular coşduqca qabarır sinə
Sinədən nə varsa, de gəlsin, şair!

Ağır oldu bu il yüküm
Alnım dərddən büküm-büküm
Daş, dəmir də bahalaşdı
Başıma hardan daş töküm?!

Ay, yer, günəş, insan –nə var
Seçər hərə öz babını
Seçib başına dolanar
Çalar eşqin rübabını.

Aylar, illər uçub getdi, mənə qalan yaş oldu
Mənzil gödək, qayğı yedək, işim tamam yaş oldu.
Çərxi-fələk yorulmadı, hümay[1] huşyar[2] olmadı
Qartal zirvədə tək qaldı, qarğa düzdə baş oldu.

*1. Cənnət quşu, dövlət quşu (ərəbcədən). Mə'cazi mə'nada: səadət, uğur, xoşbəxtlik*

*2. Ayıq, diqqətli (farscadan).*

Bəxtim gülür ara-sıra
Bir sevda qonur başıma
Bir fikir, bir neçə misra
Hakim olur yaddaşıma.

Bilirik ki, gənclik arxada qaldı
Zirvədən ensək də, fikir ucaldı
Talenin hökmü də artıq bilindi -
Ümidləri qurban veririk indi.

Bir şeytan var, gözü kor
Lənət sənə, Kor Şeytan!
Kor gözüylə tor qurur
Ehmalca, altdan-altdan.

Bir vurmazdı qəlbimiz

Yazılmazdı şerimiz -

İkimizdən birimiz

Dünyaya gəlməsəydik.

Biri quran, biri yıxan, biri qoruyan*
Allahların diyarında qaldım bir zaman
Qurmaqdan məmnun olmuşam, yıxmaqdan uzaq
Qorumaq nə ağır dərdmiş, bərk dur, ay aman!

*Hindistanda yazılıb. Hindi allahlar panteonunda əsas yerləri tutan Brahma (tək işi dünyanı yaratmaq olub), Şiva (rəqs edən, yıxıb-dağıdan allah) və Vişnu (yarananı qoruyan) adlı allahlara işarədir.*

Birinci hansı bəxtəvər daddı
Güllərin bihuş edən ətrini?
Gülə nəfəs verənmi yaratdı
Bəşəri içindən yeyən kini?

Biz ki təyin eyləmədik
Hökmü yazan hakimi,
Ömrü uzun etmək üçün neyləmədik?!
- Xeyri yoxdur, ölüb gedəcək hamı.

Bu günümdən bezib qaçsam, yox olsam ilim-ilim
Dünyanın o başında da mənimlədir nisgilim.
Yara yetmək müşkül imiş, bu - fələyin işidir
Xəyalım yetəcək sənə, oxşa onu, sev, gülüm.

Can alan, naz satanlar
O tay, bu tayda çoxdur
Sevgidə nə desən var
Sevgidə qayda yoxdur.

Çox heyf, dinc durmuruq biz
Tükənir «sonsuz» səbrimiz –
Qiymət vermək mərəzinə
Tutulmuşuq hər birimiz.

Çox sadə bir insanam mən
İnsanların çoxu kimi
Sən zərifsən, sən incəsən
Güldən gələn qoxu kimi.

Dərdim dağa dönübdür
Başı dərddən açılmaz
Eşq dərdi yaman dərddir
Eşq dərdindən qaçılmaz.

Dindirirəm pərdə-pərdə
Otən günün havasını,
Həzin-həzin nəğmələrdə
Tapdım ruhun sevdasını.

Doğru yolun hökmü ağır
Addımbaşı döngələrmiş,
Qəm yağışı və çal-çağır
Bir-birinə tən gələrmiş.

Dumanlar içindən işıq görünsün
Yanıb-yaxılmadan isinsin cahan
Zərif nəğmələrə, şerə bürünsün
Lətafət içində yaşasın insan.

Dünya nemətləri bizə tanışdır

Sən eşqə qanad ver, ruhu danışdır;

Təzə ruh versəydi təzə il bizə

Bədən sağlam ola, duyğu təp-təzə.

Dünyanı eşq yaşadar
Vurğunluqdan xoş nə var?!
Kim deyər ki, sevdalar
Gəldi-gedərdi, gülüm?!

Əşq bağında qonaq oldum, iştaham da maşallah
Yarın mənə yedirtdiyi bir turşulu aş oldu
Dedim: yandı canım odda, su çilə adda-budda
İnsaf əli quruyubmuş, qəlbi qara daş oldu.

Ey tanrıdan aldığım nur,
Sən göstərən yol doğrudur.
De, keçmişdənmi gəlmişəm,
Ya mən özüm köhnəlmişəm?

Ətrafı tutsa da yolunu azan
Haqqı tapdayarmı haqq sevən insan?!
Ya ölüm, ya olum! Nə çox, nə də az!
Oyunu ortada saxlamaq olmaz!

Əyildim otlara, diz üstə çökdüm
Güllərin ətrini içimə çəkdim.
Günəş də telini çəmənə sərdi
Daha nə möcüzə istəyəcəkdim?!

Əyilməzlik bizə gəlsə də baha
Zamanın torundan keçə bilirik.
Hələ ki, gedirik üzü sabaha
Hələ yükümüzü çəkə bilirik.

Fikir karvanını saxlamaq olmaz
Ağıl güc gəlsə də ürək aldatmaz
Qarşıda nə varsa yaradan qurur
Könlümsə keçmişlə oturub-durur.

Gecələrin məsum hüsnü nurlu aya bağlıdır
Payızın sevda çələngi dilbər yaya bağlıdır.
Çayın incə təranəsi bulağın ahənginə
Dənizin ağır ləngəri coşğun çaya bağlıdır.

Gəl, aləmin seyrinə çıx...
Qarşımızda sirli sandıq
Onu açmaq istəməsək
Bəs onda niyə yarandıq?!

Gələcək arzumdur, keçmiş xəyalım
Biri əlçatmazdır, biri ünyetməz
Birindən pay umar eşqim, amalım
Birinin həsrəti, nisgili bitməz.

Gələn-gedən təbiətdə iz salır
Olub-keçən kitablara düşəcək
Ötən gündən əməl qalır, söz qalır
Tarix qocaldıqca zənginləşəcək.

Gizli bir dünyam var, hay-küysüz, təmiz
Nə qədər varamsa, o da duracaq
Orda da ömrünü başa vuracaq
Sizin bu xülyaçı fəqir bəndəniz.

Gözümüzü tutur pərdə
Ağı qaradan seçmirik;
Eşq bizi gözləyən yerdə
Yolu düzünə keçmirik.

Günəş aya baxmasa
Ay yerə nur saçarmı?!
Qoşa qanad taxmasa
Quşlar şövqlə uçarmı?!

Hələ körpə uşaq ikən
Ağrılara düçar oldum
Vaxtından tez böyüdüm mən
Uşaq ikən yaşa doldum.

Hilalqaş lütf eyləyərsə, iki göz tüğyan eylər
Oxun tüğyan eyləməsi əyri yaya bağlıdır.
Sevgi ruhu qanadlanıb dolansa da aləmi
Həyat dostu qismətinə düşən paya bağlıdır.

Hörümçək tor qurur, ona yaxşı bax...
Ev qurub içində azad yaşamaq –
Bu istək çox sadə istək deyilmiş
Bəşər bu yolda çox xatalar etmiş...

İçimizdə çalxalanan
Qəm dəryası aşıb-daşdı
Yanağımız gözdən axan
Acı yaşlara bulaşdı.

İki gözdən bir od aldım
Alışdım, sönə bilmədim
Gecə-gündüz qanad çaldım
Geriyə dönə bilmədim.

İnsan var ki, könül səsi
Sevgi deyil, siyasətdir;
Ehtirası, fəlsəfəsi
Əmr, hökm, rəyasətdir.

Kar, kor, amma kürkü baha
Kirpi kürk yamamır daha
Erkək, dişi fərqi yoxdur
Kirpi pul yığır sabaha.

Kənd dursa da, ruh dəyişib
Qara zurna gözə dəymir;
Görən aşıq kimdən küsüb
Saz sinədə dastan demir?

Kim ki, dövlət işindədir
Şərqdə, Qərbdə, ya Çindədir
Fərqi yoxdur, qarnı toxdur –
O, səltənət içindədir.

Köhnədir bəşər qədər
Düşüncənin gərdişi;
Ömür keçməsin hədər
Budur xilqətin işi.

Külli-bəşər etsə minnət
Başımıza yağsa nemət
Can yanğısı sönən deyil
Gedən geri dönən deyil.

Qaçmışam mənsəb cəngindən
Mən də başqa cür dəliyəm;
Tutmuşam söz ahəngindən
Düzə doğru deməliyəm.

Qoca tarix təsdiq eylər:
Atılan ox düzgün dəyər –
Bir ittifaq olsa əgər
Oxla kaman arasında.

Qonağa nə deyərlər?

- Göz üstündə yerin var.

Nə döyər, nə söyərlər

Mahnı deyər samavar.

Qul bol olan yerdə kef çəkər quldur...
Oxucum, şairin sənəti budur:
Sözü qoşa-qoşa, qolboyun gəlir
Qul, quldur - avazat yaxşı düzəlir...

Məhəbbət varsa ürəkdə
Artıq söz-söhbət nədəndir?!
Bil ki, gücsüz görünmək də
Bəzən güclü sevgidəndir.

Məhəbbətə həyat verən saf nəfəsdir
Ən ulu səs qəlbimizdən qopan səsdir
O, nə xülya, nə ötəri bir həvəsdir
O, könüldən könüllərə hopan səsdir.

Nə gedən var, nə qayıdan
Yolların yükü azalıb
Nə köçən var, nə yurd salan
Dağlar intizarda qalıb.

Nə yaxşı ki kainata
Tor qurub, kəmənd atmadıq
Nə yaxşı ki, yeri, göyü
Biz qurub, biz yaratmadıq.

O gün keçdi! Yaşandı o bircə kərə
Məndən başqa onu heç kəs görə bilməz
Rəssam onu fırçasıyla verə bilməz –
Şairindir, şairlikdir o mənzərə.

Oynayıb, çağlayıb coşmaq
Həyatın meyxoş anıdır
Şeir demək, nəğmə qoşmaq
Bir həssas qəlb nişanıdır.

Ömrüm tük kimi yuxalıb
Ürəyim ondan da betər
Əzrayıl üstümü alıb
Yaşadığım mənə yetər.

Sevdadan alışdı yandı gözlərim
Şükür göz qapağı dadına çatdı;
Yumdum gözlərimi. Ey ilham pərim,
Səni də göz deyil, sevgi yaratdı!

Sevgidən doğan sözlər də
Bir zaman ölə bilərmiş;
Açılmayır sirli pərdə
Dünya nə qəribə yermiş?!

Sevib-sevilmək işində, yaxşıca bil,
Acizdir söz, acizdir dil.
Tanrıdan gəlir sevgilər –
Zəhmətin bəhrəsi deyil.

Səadəti qucaqlamaq
Olsa da, o, bir an olur
Dalınca – içdən ağlamaq...
Dünya tamam viran olur.

Sən sağ ol, mən salamat
Dünya gözəl dünyadır.
Mən ölüm, sən yüzə çat
Çat, gör dünya nə dadır?

Sənət fikrə söykənməsə
Yaşayarmı əsə-əsə?!
Həyatın sərt üzü də var
Tez quruyar dayaz sular.

Söz ürəkdən gəlsə, de! Çəkinmə sən!
Sözü doğru deyən haqq aşığıdır!
Yaltaq meydanında sus! Sus ki, bəzən
Susmaq da insanın yaraşığıdır.

Sözlərimin canı budur:
Aşiqlər hissin quludur
İstədiyin mən deyiləm
Xəyalının məhsuludur.

Şux geyimdə süzə-süzə çıxdı üzə o afət
Qaş-qabağı yıxdı məni, ay Allah, nə gündəyəm?!
Kəmər düşəydi belindən, "gəl" çıxaydı dilindən
Xəyalımı tərk et, yavrum, vüsal həsrətindəyəm.

Tale üstümüzə kölgə salsa da
Ürəklə dil tapmaq çətin olsa da
Yaşayaq, yaradaq, könül xoş olsun
Sevinc halal olsun, gülüş nuş olsun.

Tanrı uca, əlçatmazdır, görünməzdir heç kəsə
Zamanı yox, məkanı yox, zatı da dərk edilməz
Göndərdiyi elçilərsə yerdə vermiş səs-səsə
Kitablar belə söyləyir, insanlar bunu bilməz...

Təbiət insanla ittifaq qurmur
Günəş istəyirsən, sulu qar yağır.
Yar üçün özünü lap oda da vur -
Yenə də başına tufanlar yağır.

Tutuşaq, a dostlar, əl-ələ
Keçməsək arzudan əmələ
Böyük bir təhlükə, qorxu var –
Məhv olar, puç olar arzular.

Uşaq ikən neçə incə mətləbləri anlamışam
Ümidlərim ulduzlar tək gah parıldar, gah sönərdi
Uşaq ikən ürəyimdə böyükləri danlamışam
Dünya mənə böyüklərdən bir az fərqli görünərdi...

Ürəyi yoxmuş kimi
Ürəyimi qıran yar
Uçub getmə quş kimi
Ürəyimdə yuvan var.

Ürəyim deyəni etmək istədim...
İstədim, neyləyim, gücüm çatmadı.
«Bacardığım budur, bağışla» dedim
Sağ olsun ürəyim, küsüb yatmadı.

Ürəyimdə odlu sevgi bəslədim
Sənə saxlamışdım onu mən fağır
Səndə də bir işıq görmək istədim
Gördüm...üz-gözündən zəhrimar yağır.

Üstü küllənmiş köz idim
Sən üfürdün, mən alışdım.
Alışdım, yaman alışdım –
Yanaraq külə qarışdım.

Yaradan bizlərə pay yollayıbdır
Hüsnünü tarixlər sığallayıbdır
Gözəlin yaşını sormaq ayıbdır
Həmişəcavansan, ey qədim Bakı!

Yazıq ürək, yenə dərd çək...
Qafil, gülmə kədərimə –
Gör nə qədər «hayıf» demək
Yazılıbdır qədərimə.

Yorularmış insan bəzən
Süni, yapma təbiətdən...
Saf insana vuruldum mən
Uzaq durdum bədheybətdən.

Zahirim quru cəsəddir, hər nə var batindəyəm
Piyadəlik əhvalım yox, hey xəyal atindəyəm.
Dünyanı fəth eyləyərəm, bəxtim müttəfiq olsa
Məğrib mənim, Məşriq mənim, Hindistanda, Çindəyəm.

Zaman verib öz hökmünü –
Ötənlər əzizdi bizə
Xatirədir keçən günü
Bağlayan bu günümüzə.

Zəmanə ortaya təzə dəb salıb:
Kütlər, bir də lütlər meydan sulayır.
Şair bu havanı yüz dəfə çalıb
Ayrı yolun yoxdur – yenə çal, şair!

# Məcazlar

Elmdə sıramız?… Bəli, seyrəkdir
Bizimki o deyil, sevən ürəkdir
On səkkiz min şair nəyə gərəkdir
Sən məni də şair etdin, a millət?!

Guya mənəviyyat axsayır indi
Nə qədər axsasa yenə bəsindi.
Mənəviyyat nədir, təmizlik nədir?
Təmiz olan bədbəxt gör nə gündədir!

Qaydasız oyundur həyat
Yaxşı oyna, arzuna çat.
İndi də belə zamandır
Bacarana baş qurbandır.

Millətin işləri başından aşır
Gecə-gündüz toyda, ya bazardadır.
Millətə oynayıb gülmək yaraşır
Elmə, fəlsəfəyə vaxtı hardadır?!

Sentimental bu ax-uflar
Son vaxt yaman çoxalıblar,
Bu şairlər, filosoflar
Xalqın evini yıxıblar.

Tərifşünas olub tənqidşünaslar
Ürəyə... çörəyə bunun xeyri var.
Tərif xoşhallıqdır, tənqid evyıxmaq
Tənqidə qurşanar, de, hansı axmaq?!

Ür?kd? saxlama n? dava, n? kin
Get-ged? azalır qonşun d?rb?d?r -
N? qalıb, uzağı yüz-yüz ?lli min,
Y?ni, bizim şadlıq evl?ri q?d?r.

© Khazar University Press, 2007
All rights reserved.

The book includes quatrains written in different years, many of which are published here for the first time. It is composed of four parts:

***Rubailər*** – 11- syllabled quatrains rhymed as “aaba”

***Bayatılar*** – 7- syllabled quatrains rhymed as “aaba”

***Yarpaqlar*** (Leaves) – quatrains in which there are no restrictions in the number of syllables as well as in rhyming

***Məcazlar*** (Metaphors) – quatrains written in special “Sabir style”.The last two parts, besides separate quatrains, include also quatrains taken from author's various poems.

Hamlet Isaxanli

# *Quatrains*

Khazar University Press
2007